Biz birlikdə güclüyük, güclülər qalib gəlir

GÜNDOĞAR

9 may 2020-ci il № 9 - 1 0 (6736)

İCTİMAİ-SİYASİ QƏZET

Qəzet 1931-ci ildən çıxır. e-mail: gundogarqazeti@box.az

Təsisçilər: Neftçala Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü tamam olur

AZƏRBAYCANIN ÖZÜ QƏDƏR ULU, ƏZƏMƏTLİ

Vaxtı ilə dünyanın ən böyük ölkələrindən sayılsa da, yadellilərin qəsbkarlığı, qurulan məkrli planlar nəticəsində bölünə-bölünə, parçalana-parçalana kiçik bir dövlətə çevrilən Azərbaycanın ötən əsrin 70-ci illərində təcavüzkarlığı ilə dünyaya vahimə salan Sovet imperiyasının tərkibində bir dövlət, xalq kimi əriyib yoxa çıxması prosesi gündən-günə sürətlənirdi. Aparılan təcavüzkar siyasət nəticəsində xalqın milli-mənəvi dəyərləri unutdurulur, dilinə qəsd olunur, digər xüsusiyyətləri sıxışdırılıb aradan qaldırılırdı. Öz kökündən ayrılan Azərbaycan gücünü, qüvvəsini getdikcə daha çox itirir, daha çox zəifləyirdi. Xalqımızın qüdrətli oğlu Heydər Əliyev respublikamızın məhvə məhkumluğunun məhz bu mərhələsində — 1969-cu ilin iyulunda hakimiyyətə gəldi və o vaxtdan da Azərbaycan tarixinin Heydər Əliyev dövrü başlandı.

Həmin vaxta qədər tənəzzüldə, durğunluqda olan, ittifaqda geridə qalmış aqrar respublika kimi tanınan Azərbaycanda çox keçmədi böyük canlanma yaranmağa başladı. Bunun üçün Heydər Əliyev saysız-hesabsız maneələri, sədləri dəf etməli oldu, insanlarda qurub yaratmaq əzmi gücləndirildi. Qısa müddətdə respublika sözün əsl mənasında quruculuq meydanına çevrildi. Yeni-yeni müəssisələr inşa olunur, yollar çəkilir, çoxlu sayda yaşayış evləri tikilir, məktəblər, xəstəxanalar, mədəniyyət obyektləri istifadəyə verilirdi. İttifaq üçün çox önəmli olan kondisioner zavodunun Bakıda inşa olunması Heydər Əliyevə olan inamdan, etibardan irəli gəlirdi. Bu həm də ulu öndərin SSRİ-də hansı siyasi çəkiyə malik olmasının əyani göstəricisi idi. Öz böyük əzmi, fədakarlığı, xalqı səfərbər etmək bacarığı sayəsində Heydər Əliyev qısa zaman kəsiyində güclü iqtisadiyyata, böyük mədəniyyətə, milli oyanışa malik bir respublika yaratdı. Elə bir respublika ki, o dövrdə qurulanlar, yaradılanlar, əsası qoyulanlar müstəqilliyimizin ilk illərində onun dayaqlarına, sütunlarına çevrildi. Bu isə Heydər Əliyev zəkasının uzaqgörənliyinə, öncəgörənliyinə əyani bir nümunə idi. Gələcəyi görməyi bacaran böyük siyasətçi öz ölkəsinin, xalqının müstəqilliyi üçün hələ 20 il öncə zəmin yaratmışdı. Bu isə əsl müdriklik, böyüklük idi.

Şübhəsiz, respublikamızdakı bu tərəqqi, yüksəliş xain qonşularımızın — ermənilərin diqqətindən yayına bilməzdi. Heydər Əliyevin məhz belə bir dövrdə SSRİ rəhbərliyinə aparılmasında da onların rolu az olmamışdı. Məqsəd Azərbaycanda başlanmış bu yüksəlişin qarşısını almaq, coşub çağlayan respublikanı başsız qoymaq idi. Zaman-zaman pusquda dayanaraq xalqımıza, millətimizə qənim kəsilən ermənilər bu dəfə də məqsədlərinə belə nail oldular. Bu o dövr idi ki, vaxtı ilə suyumuzu içib, çörəyimizi yeyən ermənilər növbəti məkrli planlarını həyata keçirmək üçün coğrafi adlarımızı, mədəniyyətimizi, mənsub olduğumuz bütün maddi və mənəvi dəyərlərimizi özününküləşdirirdilər. Heydər Əliyev kimi güclü şəxsiyyət Azərbaycan rəhbərliyində olsaydı, yəqin ki, ermənilər bu hərəkətlərini həyata keçirə bilməyəcəkdilər. Buna baxmayaraq Heydər Əliyev uzaqdan uzağa olsa da, canı, qanı qədər sevdiyi Azərbaycandan, doğma xalqından köməyini əsirgəmirdi, bir çox məsələlərin həllində onu qətiyyətlə müdafiə edirdi.

Amma düşmən hiyləgər idi. Qorbaçovun ətrafında olan ermənilər onun diqqətindən məharətlə istifadə edir, istədiklərinə nail ola bilirdilər. Heydər Əliyevin SSRİ rəhbərliyindən istefasından sonra bu proses daha da sürətlənməyə başladı. Azərbaycan hakimiyyətinə milli heysiyyəti olmayan insanların gətirilməsi vəziyyəti xüsusilə ağırlaşdırdı. İqtisadiyyat dağılır, talanlar artır, aqillərin səsi cahillər tərəfindən batırılır, hər yerdə dələduzluq, qudurğanlıq hökm sürürdü. Hakimiyyətdən xəbərsizlərin hakimiyyətə gətirilməsi, iftiraların, böhtanların ayaq tutub yeriməsi onsuz da çətin olan vəziyyəti daha da mürəkkəbləşdirirdi. Ev-ev, məhəllə-məhəllə bölünən separatçılıq meyllərinin gündən-günə genişləndiyi Azərbaycanda əsl xaos, anarxiya yaşanırdı. Ölkənin paytaxtında, Bakı şəhərində hakimiyyət uğrunda sözün əsl mənasında mübarizə yox, müharibə gedirdi. Bundan istifadə edən düşmənlər yurdumuza ayaq açır, torpaqlarımızı zəbt edir, soydaşlarımızı öz doğma ev-eşiklərindən qovur, qanlı qırğınlar törədirdilər.

Amma belə davam edə bilməzdi. Ölkə açıq-aydın fəlakətə sürüklənirdi. Təhlükənin son həddə çatdığı məhz belə bir məqamda xalq ayağa qalxaraq öz böyük oğlunu — Heydər Əlirza oğlu Əliyevi təkidlə Bakıya dəvət etdi. Həmin dövrdə bu ağır yükün altına girmək hər adamın işi deyildi. Ancaq Heydər Əliyev tərəddüd etmədən bu ağır yükü çiyninə götürdü. Bu sonsuz gücü ona xalqına, millətinə, Vətəninə olan böyük sevgisi vermişdi. Xalq da böyük dövlətçilik təcrübəsinə malik rəhbərinin ətrafında sıx cərgələrlə birləşdi, onu özünün xilaskarı, güvənc yeri sandı. Ulu öndərin dəmir iradəsi bütün çətinliklərə, ağırlıqlara mətanətlə dözdü, xalqın düşmənlərinə, separatçılara qarşı qətiyyətlə mübarizə apardı. Belə bir vaxtda Heydər Əliyev öz gücünü, qüvvəsini ətrafında sıx birləşən xalqından, millətindən alırdı. Çox keçmədi, hər şey dəyişməyə başladı. Bütün sahələrdə qanunçuluğun möhkəmləndirilməsi, qanunsuz silahlı birləşmələrin ləğv olunması və həyata keçirilən digər təxirəsalınmaz tədbirlər nəticəsində xaosun, anarxiyanın qarşısı alındı. Hər yerdə sabitlik yaradıldı. Cəbhədə atəşkəsə nail olunması sayəsində ölkədə böyük quruculuq işlərinə start verildi. Biz çox sevinirk, qürur hissi keçiririk ki, bu günkü möhtəşəm uğurlarımızın təməli məhz o çətin illərdə qoyulmuşdur. Ulu öndərin müdrik zəkası, uzaqgörən siyasəti böyük çətinliklər, qanlar, qurbanlar bahasına qazanılmış müqəddəs müstəqilliyimizi qoruyub saxlamağa, onu əbədi və dönməz etməyə imkan verdi. Ümummilli lider təkcə müstəqilliyimizi qoruyub saxlamadı, həm də Azərbaycanı dünya birliyinə qovuşdurdu. Onu Şərq-Qərb, Şimal-Cənub sivilizasiyalarının mərkəzinə çevirdi, bütövlükdə türkdilli ölkələrin inkişafı, tərəqqisi üçün çoxşaxəli təəssübkeşlik missiyasını həyata keçirdi. Millətini, xalqını dünyaya tanıtmaq, onun ləyaqətli övladlarının səsini, sorağını aləmə yaymaq üçün əlindən gələni əsirgəmədi. Milli-mənəvi dəyərlərimiz, dilimiz, xalqımızın ləyaqətli övladları məhz bu dahi insanın həyata keçirdiyi tədbirlər nəticəsində dünyaya tanıdıldı, üçrəngli bayrağımız bütün qitələrdə vüqarla dalğalandı, Azərbaycan uzaq-uzaq ünvanlarda tanınmağa başladı. Bax, budur Heydər Əliyev zəkasının böyüklüyü, nəhəngliyi, əzəməti. Biz bu Böyük Azərbaycanlının — qüdrətli Vətən oğlunun qarşısında baş əyirik. Bu böyüklüyün nəticəsidir ki, qədirbilən xalqımız ötən illərdə olduğu kimi bu il də ulu öndərini sonsuz məhəbbətlə, qürur hissi ilə yad edir, bu böyük şəxsiyyətin abidəsi önünə ətirli çiçəklər düzür, öz dahi oğlu ilə fəxr edir.

Alman faşizmi üzərində Qələbənin 75-ci ildönümü münasibətilə rayon veteranlarına təbrik

Əziz veteranlar!

Sizi 9 may — Qələbənin 75-ci ildönümü münasibətilə rayon ictimaiyyəti adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

XX əsrin ortalarında baş vermiş İkinci Dünya Müharibəsi bəşər tarixinin ən qanlı, ən dağıdıcı hadisələrindən biridir. Dünyanın əksər böyük dövlətlərinin cəlb edildiyi bu qanlı müharibə bəşəriyyətə çox ciddi maddi və mənəvi ziyanlar vurmuş, on minlərlə şəhərin, kəndin, qəsəbənin yerlə-yeksan olmasına səbəb olmuşdu. 50 milyondan artıq insanın cəbhələrdə tələf olması bəşəriyyət üçün çox ağır itki idi.

SSRİ-ni diz çökdürmək üçün başlanılan bu müharibənin əsas ağırlığı Sovetlər Birliyinə daxil olan respublikaların, onların xalqlarının, millətlərinin üzərinə düşsə də, Avropa ölkələri də bundan az əziyyət çəkmədilər. Dünyanı lərzəyə salan faşizmə qarşı mübarizədə dünya xalqlarının, millətlərinin birləşərək müqavimət hərəkatını yaratmaları da bunun nəticəsi idi. SSRİ xalqlarının əzmkarlığı, dünya birliyinin ardıcıl mübarizəsi nəticəsində nəhayət ki, faşizm diz çökdü, 1945-ci il may ayının 9-u tarixə Hitler Almaniyası üzərində Qələbə Günü kimi daxil oldu.

Bəşəriyyətin qeyd etdiyi bu tarixi gündə Azərbaycan xalqının da qürur hissi keçirməyə haqqı var. Ona görə ki, bu tarixi qələbə üçün o da misilsiz qəhrəmanlıq nümunələri göstərmişdir. Həmyerlilərimiz gecə-gündüz fədakarlıqla çalışaraq cəbhəni ərzaqla, geyimlə, silah-sursatla və digər zəruri vasitələrlə, avadanlıqlarla təmin etmişlər. Müharibə dövründə ittifaqda çıxarılan "qara qızıl"ın 80 faizi Bakı neftçilərinin böyük fədakarlığı, əsl qəhrəmanlığı sayəsində mümkün olmuşdu. Ön cəbhədə döyüşən 700 mindən çox həmyerlilərimizin yarısından çoxunun qayıtmaması xalqımız, millətimiz üçün böyük itki olsa da, onlar öz mərdlikləri ilə Azərbaycana başucalığı gətirdilər.

Bizim üçün fəxrdir ki, igid neftçalalılar da faşizmə qarşı aparılan bu qanlı mübarizənin daim ön sıralarında oldular. Dörd minə yaxın həmyerlimiz Vətənimizdən çox-çox uzaqlarda həlak olaraq əbədiyyətə qovuşdular. Üç həmyerlimizin göstərdikləri şücaətə görə o dövrün ən yüksək mükafatına — Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi bizim üçün unudulmazdır. Yüzlərlə neftçalalıların ölkənin yüksək orden və medallarına layiq görülməsi onların mərdliyindən, igidliyindən xəbər verir.

Faşizm üzərində tarixi Qələbənin qeyd olunduğu bu tarixi günlərdə müharibə veteranlarının əziz xatirəsinin hörmətlə yad olunması onlara olan böyük ehtiramdan irəli gəlir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin bayram ərəfəsində imzaladığı sərəncamla müharibə veteranlarına və onların ailələrinə birdəfəlik yardımların göstərilməsi də onlara olan hörmət və ehtiramdan irəli gəlir.

Əziz və hörmətli veteranlar!

Bu unudulmaz günlərdə bir daha sizi böyük ehtiramla anaraq bayramnızı ürəkdən təbrik edirik. Qalanlara möhkəm can sağlığı, dünyalarını dəyişənlərə isə Qadir Allahdan qəni-qəni rəhmət diləyirik.

Mirhəsən SEYİDOV, Neftçala Rayon İcra Hakimiyyətinin başçısı

SONUNCU DƏFƏ NEFTÇALANI MÜSTƏQİL RAYON KİMİ QURUB YARADAN ULU ÖNDƏRƏ NEFTÇALALILARIN EHTİRAMI ƏBƏDİDİR

Müharibə veteranları məhəbbətlə yad olundu

Neftçalalılar hər hansı bir uğura imza atanda, nailiyyətlə üzləşəndə istər-istəməz ürəklərindən bir minnətdarlıq duyğusu keçir, ulu öndər Heydər Əliyevi məhəbbətlə yad edirlər. Bu heç də təsadüfi deyil. Neftçalanın sonuncu dəfə müstəqil rayon kimi fəaliyyətə başlaması bu dahi insanın adı ilə bağlıdır. 1973-cü ilə qədər dəfələrlə qonşu rayonların tərkibinə qatılan, ayrılaraq digər qurumda birləşdirilən Neftçala uzun illər kölgədə qaldığından, necə deyərlər, gözdən uzaq, könüldən iraq olduğundan öz potensialını ortaya qoya bilməmiş, inkişafdan geri qalmışdı. Rayon mərkəzinin uzaqda olması adamların özünə də pis təsir göstərirdi. Onlar adi bir arayışdan ötrü günlərlə vaxt itirməli, ora-bura getməli olurdular.

Neftçalanın potensialının geniş olması ilk dəfə məhz ulu öndər Heydər Əliyevin diqqətini cəlb etdi. Lazımi araşdırmalardan sonra Neftçalanın müstəqil rayon kimi fəaliyyətə başlaması haqqında verilən tarixi qərar da bu dahi, uzaqgörən insanın təşəbbüsündən, fəal müdaxiləsindən sonra baş tutmuşdu. Rayon sakinləri bu diqqət və qayğını yüksək qiymətləndirərək elə ilk gündən etimada layiq olduqlarını sübut etməyə çalışmışdılar. Rayon sakinləri özlərinin əzmkarlıqları, fədakarlıqları ilə sübut etdilər ki, onlar doğma Neftçalanı müstəqil rayon kimi irəli aparmağa, qələbələr qazanmağa qadirdirlər.

Ulu öndər Heydər Əliyev Neftçalada —1979-cu il, 30 may

Məhsul istehsalı genişləndikcə rayonun iqtisadiyyatı möhkəmlənir, büdcə zənginləşir, adamların gəlirləri artırdı. Bu isə öz növbəsində Neftçalanın yenidən qurulmasına şərait yaradırdı. Hər tərəfdə qaynarlıq vardı. Yeni-yeni müəssisələr işə salınır, məktəblər, xəstəxanalar, mədəniyyət obyektləri tikilir, yollar çəkilir, küçələr, meydanlar öz görkəmini durmadan dəyişirdi. Əvvəlki illərlə müqayisədə adamların dolanışığı da xeyli dərəcədə yaxşılaşırdı.

Aradan 6 il keçəndən sonra 1979-cu ilin mayında ulu öndər Heydər Əliyev özünün qurub yaratdığı Neftçalaya gələndə rayon sakinlərinin öz xeyirxahlarını böyük məhəbbətlə, gül-çiçəklə qarşılamaları, ayaqları altında qurbanlar kəsmələri də bununla əlaqədar idi. Ulu öndər də neftçalalıların əməyinə, mədəni səviyyələrinə yüksək qiymət verdi, onlara daha böyük uğurlar, nailiyyətlər arzuladı.

Yaşlı nəslin nümayəndələri möhtərəm Heydər Əliyevin ayrı-ayrı təsərrüfatlarda, Neftçala Yod-Brom Zavodunda, Bankə Balıq Kombinatında, Neftçala şəhərində və digər yerlərdə insanlarla səmimi görüşlərini, onlarla söhbətlərini bu gün də böyük məhəbbətlə xatırlayırlar. Tarixi səfərin sonu olaraq Nəriman Nərimanov adına rayon mədəniyyət evində təşkil olunmuş yekun müşavirə xüsusilə unudulmazdır. Ona görə unudulmazdır ki, bu dahi insan həmin müşavirədəki tarixi nitqində Neftçalanın da, neftçalalıların da əsl dəyərini verdi, rayonun daha böyük uğurlarının hələ qabaqda oduğunu bildirdi.

Doğrudan da belə oldu. Ulu öndər Heydər Əliyevin bu yolunu 2003-cü ildən sonra uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin qayğı və diqqəti sayəsində Neftçala həmişə irəli getdi, uğurlar qazandı, nailiyyətlərini durmadan möhkəmləndirdi. Bu gün Neftçalaya Heydər Əliyev rayonu deyənlər heç də yanılmırlar. Sonuncu dəfə Neftçalanı müstəqil rayon kimi bu dahi, uzaqgörən insan qurub yaratdı. O vaxtdan başlayaraq neftçalalılar öz xeyirxahlarını — ulu öndər Heydər Əliyevi həmişə böyük məhəbbətlə xatırlayır, əziz xatirəsini ehtiramla anırlar. Unudulmaz rəhbər anadan olmasının 97-ci ildönümü günlərində də beləcə sevgi ilə yad olundu.

Rayon icra hakimiyyətinin başçısı Mirhəsən Seyidov Böyük Vətən müharibəsi veteranlarını ziyarət edir

Habil ƏSƏDOV

Sosioloji sorğu: Azərbaycan xalqının 94,7 faizi öz Prezidentinə etibar edir, güvənir

Dövlət başçılarının fəaliyyətlərinin xalq tərəfindən necə qarşılandığının, necə qiymətləndirildiyinin öyrənilərək cəmiyyətə çatdırılmasında ictimai sorğuların rolu böyükdür. Bu və ya digər məsələlərlə bağlı belə sorğular dünyanın hər yerində keçirilir və cəmiyyət tərəfindən müsbət qarşılanır. Sorğularda qoyulan suallara, məsələlərə cavab verməklə insanlar cəmiyyətdəki mövcud vəziyyətə geniş aydınlıq gətirirlər.

Sosial Təqiqatlar Mərkəzinin bu günlərdə keçirdiyi sosioloji sorğu da bu cəhətdən böyük əhəmiyyət daşıyır və cəmiyyət həyatına hərtərəfli güzgü tutur. Prezident İlham Əliyevin son dövrdə həyata keçirdiyi genişmiqyaslı inqilabi islahatlarla bağlı cəmiyyətin aktiv münasibətini nəzərə alaraq mərkəz ötən ildən başlayaraq sorğunun yeni formatda — rübdə bir dəfə keçirilməsinə start vermişdir. Bundan da məqsəd sosial proseslərin dinamikasını və ictimai rəydə dəyərləndirilməsini daha operativ şəkildə izlənilməsini həyata keçirməkdir.

Bu günlərdə keçirilən sosioloji sorğu bir daha əyani şəkildə göstərdi ki, Azərbaycan xalqının mütləq əksəriyyəti Prezident İlham Əliyevin 17 illik coşqun fəaliyyətini ürəkdən dəstəkləyir. 94,7 faiz insanın öz dövlət başçısına etibar etməsi, güvənməsi bunun əyani göstəricisidir. Bununla yanaşı 93 faiz insanın koronavirusla bağlı həyata keçirilən tədbirləri müsbət dəyərləndirməsi, 92,8 faiz insanın ictimai qınağa Prezidentin göstərdiyi reaksiya ilə həmrəy olduğunu bildirməsi, 91 faiz insanın Prezidentin gənc kadrları vəzifəyə təyin etməsini alqışlaması, 89,2 faiz insanın sağlamlığın qorunmasında dövlət siyasətini təqdir etməsi, 87,8 faiz insanın sosial-iqtisadi islahatları bəyəndiyini söyləməsi, 87,8 faiz insanın problemlə qarşılaşdığı zaman dövlətin dəstək göstərəcəyinə inandığını vurğulaması, 85,6 faiz insanın karantin məhdudiyyətlərinin tətbiqinə müsbət yanaşması, 84 faiz insanın kütləvi tədbirlərin qadağan edilməsini dəstəkləməsi, 82,4 faiz insanın tədrisin dayandırılmasına müsbət yanaşması da bütövlükdə dövlət başçısının siyasətinə verilən yüksək dəyərdir.

Aparılan sorğu indiki dövrdə Azərbaycan reallığını əks etdirən nəticədir. Bu bir daha aydın şəkildə göstərdi ki, ölkə əhalisinin mütləq əksəriyyəti dövlət başçısı cənab İlham Əliyevin genişmiqyaslı fəaliyyətini, qlobal təşəbbüslərini, həyata keçirdiyi sosial-iqtisadi kursu, siyasi islahatları, daxili və xarici siyasətini, son vaxtlar dünyanı cənginə alan koronavirus pandemiyası dövründə həyata keçirdiyi qabaqlayıcı tədbirləri tam dəstəkləyir və bununla həmrəydir.

Beynəlxalq bazarda neft qiymətlərinin kəskin aşağı düşməsi fonunda qarşıdurmaların kəskinləşməsi, ikinci dünya müharibəsindən sonrakı dövrdə ilk dəfə istər sosial-siyasi, istərsə də iqtisadi sahədə böhran yaradan və bütün dünyanı bürüyən koronavirus pandemiyasının durmadan genişləndiyi bir vaxtda Prezident İlham Əliyevə bəslənilən bu böyük inam və etimad illərlə çəkilən gərgin zəhmətin, aparılan düzgün siyasətin, həyata keçirilən inqilabi dəyişikliklərin bəhrəsidir. Aparılan sorğu bir daha sübut etdi ki, xalq öz Prezidentini sevir, ona güvənir və etibar edir. Ölkə vətəndaşlarının mütləq əksəriyyəti İlham Əliyevi özünə alternativsiz lider kimi görür və yüksək dəyərləndirir. Belə ümumxalq sevgisinə nail olmaq isə hər ölkə liderinə nəsib olmur. Bunun üçün gərək xalqın, millətin üçün fədakarlıqlar göstərəsən ki, xalq da sənə inansın, səni ürəkdən sevsin. Azərbaycan xalqı bu fədakarlığı, vətənpərvərliyi dəfələrlə görmüşdü, bunun şahidi olmuşdu. Pandemiya dövrünün böyük çətinlikləri fonunda atılan qətiyyətli addımlar möhtərəm İlham Əliyevin necə böyük güclü şəxsiyyət olduğunu bir daha təsdiqlədi. Xalq isə ən çətin gündə onun yanında olan, fədakarlığı ilə milyonları arxasınca aparmağı bacaran qəhrəmanlarını həmişə sevir və yəqin bundan sonra da sevəcək.

GÜNDOĞAR

Biz birlikdə güclüyük, güclülər qalib gəlir

Pandemiya ötəcək, iqtisadi fəallıq yüksələcək, həyat öz axarına düşəcək, ancaq xəstəlik qurbanları bir daha geri qayıtmayacaq

Xəstəliyin vurduğu ziyanın nəticələri hər kəs üçün, hər dövlət üçün eyni olmayacaq. Hansı dövlət başçısı məsələnin ciddiliyini, məsuliyyətini kifayət qədər dərindən anlayaraq vaxtında lazımi tədbirlər gördüsə, o ölkədə xəstəlik nisbətən yüngül keçdi, yoluxma az oldu. Məsələyə yüngül yanaşanların aqibəti isə göz qabağındadır. Ayrı-ayrı yerlərdə, xüsusilə Avropa ölkələrində, ABŞ-da çox ciddi fəsadlar baş verib, on minlərlə insan həyatını itirib.

Bu mənada ölkəmizin təcrübəsi təqdir olunandır. Koronavirus təhlükəsinin yarandığı ilk gündən Prezident İlham Əliyev xalqın təhlükəsizliyini ön plana çəkərək çox ciddi tədbirlər görməyə başladı. Özü də ardıcıl, sistemli, düşünülmüş şəkildə. Başqa ölkələrlə müqayisədə yoluxmanın, ölüm faizinin Azərbaycanda az olması da bununla bağlıdır. Təsadüfi deyil ki, bütövlükdə koronavirus pandemiyasına qarşı mübarizənin təşkilatçısı — Ümumdünya Səhiyyə Təşkilatı ölkəmizin bu sahədəki fəaliyyətini yüksək qiymətləndirərək Azərbaycanın təcrübəsindən istifadə etməyi digər dünya ölkələrinə nümunə göstərmişdir.

Respublikamızda vəziyyətin nisbətən stabil olmasına baxmayaraq Prezident İlham Əliyev daim fəaliyyətdədir. Təkcə ölkəmizin yox, bəşəriyyətin bu bəladan xilas olması üçün lazımi tədbirlər görür, iş aparır. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri kimi dövlətimizin başçısının təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə zirvə görüşünün keçirilməsi də bu ali məqsədə xidmət edirdi. Bütövlükdə koronavirus pandemiyasına qarşı mübarizəyə həsr olunmuş bu zirvə görüşündə görülən işlərdən, həyata keçirilən tədbirlərdən danışmaqla yanaşı həm də geniş fikir mübadiləsi aparıldı, təkliflər irəli sürüldü, qərarlar qəbul olundu.

Bundan az sonra Prezident İlham Əliyev cari ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş videokonfrans keçirdi. Dövlət başçısının söylədiklərindən məlum oldu ki, neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinə, iqtisadi fəallığın azalmasına baxmayaraq sosial layihələr uğurla həyata keçirilir. Əhalinin təhlükəsizliyinin təmin olunması daim diqqət mərkəzindədir və bunun üçün lazımi tədbirlər görülür. İlin birinci rübündə 2,3 milyon insana sosial ödənişlərin verilməsi bunun əyani nəticəsidir və ödənişlər ardıcıl şəkildə davam etdiriləcəkdir. Maliyyə naziri Samir Şərifov, Mərkəzi Bankın sədri Elman Rüstəmov, iqtisadiyyat naziri Mikayıl Cabbarov, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, kənd təsərrüfatı naziri İnam Kərimov çıxış edərək rəhbərlik etdikləri işçi qruplarının fəaliyyətlərindən danışdılar.

Yekun nitqində Prezident İlham Əliyev görüləcək işlərə geniş aydınlıq gətirdi. Bildirdi ki, müəyyən çətinliklərə baxmayaraq işlər davam edəcək, əhalinin sağlamlığının qorunması, sosial təhlükəsizliyi daim diqqətdə olacaqdır. Bununla yanaşı dövlət başçısı insanlara növbəti çağırışını da etdi, onları karantin qaydalarına ciddi əməl etməyə çağırdı, həkim və tibb işçilərinə, karantin qaydalarının qorunmasında xidmətləri olan hər kəsə səmimi minnətdarlığını bildirdi. Eyni zamanda ölkə rəhbəri imkanlı şəxsləri, iş adamlarını aztəminatlı ailələrə, maddi durumu zəif olan şəxslərə, yaşlı insanlara qarşı diqqətli olmağa çağırdı. Bildirdi ki, biz yalnız qüvvələrimizi birləşdirməklə güclü ola, xalqımızı, millətimizi bu ağır bəladan birlikdə xilas edə bilərik. Sonda dövlət başçısının dediyi "Biz iki amil arasında seçim etməliyik: iqtisadi fəallıq və insanların sağlamlığı. Mənim seçimim birmənalıdır: insanların sağlamlığı" sözləri onun hər bir Azərbaycan vətəndaşına, xalqına olan sevgisinin əyani təzahürü idi.

Aprelin 17-də iqtisadiyyat naziri Mikayıl Cabbarovla, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevlə videokonfrans şəklində keçirdiyi iclasda İlham Əliyev bu fikirləri bir daha önə çəkdi. Karantin rejiminin mərhələli şəkildə aradan qaldırılmasının zərurətindən danışaraq bu müddətdə aztəminatlı ailələrə diqqətin xüsusilə artırılacağını vurğuladı. Bildirdi ki, işsiz insanlara göstərilən 190 manatlıq yardımlar genişləndirilərək 200 min nəfərdən 600 min nəfərə çatdırılmalı, 90 min ödənişli ictimai iş yerləri yaradılmalı, 12 min insan özünüməşğulluğa cəlb edilməlidir.

Prezident İlham Əliyev dayanmadan fəaliyyətini böyük inamla davam etdirir. Bütün imkanlardan səmərəli istifadə edərək koronavirus pandemiyasının təkcə Azərbaycanda yox, bütün dünyada aradan qaldırılmasına, qarşısının alınmasına çalışır. Dövlət başçımızın təşəbbüsü ilə mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupu formasında zirvə görüşünün videokonfrans vasitəsilə keçirilməsi də məhz bununla bağlı idi. Yeri gəlmişkən deyək ki, Qoşulmama Hərəkatının ötən il oktyabrın 25-26-da Bakıda keçirilən zirvə görüşündə 120 üzv dövlətin yekdil dəstəyi və razılığı ilə 2019-2022-ci illər üzrə Hərəkata rəhbərliyi Azərbaycan öz üzərinə götürmüşdü və Prezident İlham Əliyev bu səlahiyyətindən istifadə edərək növbəti zirvə görüşünün keçirilməsinə nail oldu. BMT-nin, Afrika İttifaqının, Ümumdünya Səhiyyə Təşkilatının və digər qurumların qatıldığı bu mötəbər tədbirdə dövlətimizin başçısı Azərbaycanda koronavirusa qarşı mübarizə tədbirləri barədə geniş məlumat verdi. Digər səlahiyyətli təşkilatların rəhbərlərinin məlumatları da diqqətlə dinlənildi və sonda müvafiq qərarlar qəbul edildi.

Bütün bunlar Azərbaycanın öz vətəndaşına, dünya xalqlarına verdiyi böyük dəyərdir. Yəqin pandemiya ötəcək, ictimai fəallıq yüksələcək, həyat öz axarına düşəcək, ancaq xəstəlik qurbanlarını bir daha geri qaytarmaq mümkün olmayacaq. Bu dar gündə insanları qoruduğuna, onlara göstərdiyi hərtərəfli köməyinə, dəstəyinə görə dövlət başçısına minnətdar olmalıyıq.

H. ƏSƏDOV

Əsl xeyirxahlıq, mərhəmət nümunəsi

Koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması indi bütün dünyanı düşündürən, narahat edən başlıca məsələdir. Bununla əlaqədar ölkəmizdə də çox ciddi karantin tədbirləri görülür, əhalinin təhlükəsizliyinin qorunması, aztəminatlı ailələrin sosial təminatının yaxşılaşdırılması daim diqqətdə saxlanılır. Belə bir vaxtda talassemiya və hemofeliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkən uşaqlar üçün qan ehtiyatının azalması narahatlıq doğurmaya bilməzdi. Həmişə olduğu kimi bu dəfə də ilk xeyirxah təşəbbüs Heydər Əliyev Fondundan və Heydər Əliyev Mərkəzindən gəldi.

Aprelin 11-də hər iki təşkilatın əməkdaşları qan verməklə gözəl bir nümunə göstərdilər. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva bunu yüksək dəyərləndirərək "Facebook" səhifəsində hamının ürəyini titrədən bir paylaşım etdi.

Paylaşımda deyilirdi: "Şəfqət, mərhəmət, humanizm, səxavət, xoş əməllər etmək, köməyə ehtiyacı olanın yanında olmaq kimi keyfiyyətlər həmişə bizim ən mühüm həyati dəyərlərimiz olmuşdur və bu gün də belədir. Bütün dünyanı sarsıtmış koronavirus pandemiyası ilə bağlı ölkəmizdə xüsusi karantin rejiminin tətbiq olunduğu bir vaxtda xalqımızın həmrəy olmaq, insanpərvərlik nümayiş etdirmək, diqqət və qayğı göstərmək bacarığı hər birimizə ancaq qürur hissi yaşadır. İrsi qan xəstəliyindən, xüsusilə də talassemiyadan əziyyət çəkən insanlara dəstək məqsədilə Milli Hemotologiya və Transfuzologiya Mərkəzinin Qan Bankı tərəfindən keçirilmiş qanvermə aksiyasında könüllü olaraq iştirak edən Heydər Əliyev Fondunun və Heydər Əliyev Mərkəzinin əməkdaşlarına təşəkkürümü bildirirəm. Siz bu nəcib əməlinizlə bir insan həyatının xilaskarı olursunuz. Bu, ən yüksək qiymətə layiqdir! Əminəm ki, sizin təşəbbüsünüz bu məsələyə laqeyd yanaşmayan və ölkəmizin yaxşılıq etməyə hazır olan bütün vətəndaşları tərəfindən dəstəklənəcəkdir! Çox sağ olun!"

Bu, insanlığa, mərhəmətə, xoş əmələ bir çağırış idi. Az-çox qəlbi, ürəyi olan insan bu çağırışa biganə qala bilməzdi. Qalmadılar da. Çox keçmədi Milli Məclis üzvləri, ayrı-ayrı təşkilatların əməkdaşları bu nəcib təşəbbüsə ürəkdən qoşularaq xəstə insanlar üçün qan verməyə başladılar. Onların sıpasında xeyirxah neftçalalılar da az deyildi. Rayonumuzun sakinləri də qanvermə aksiyasında fəal iştirak etdilər.

Onu da deyək ki, Heydər Əliyev Fondu talassemiya problemi ilə bağlı əvvəllər də çox mühüm tədbirlər həyata keçirib. 2005-ci ildən "Talassemiyasız həyat naminə" layihəsi bu cəhətdən çox böyük əhəmiyyət kəsb edib. Bununla əlaqədar ixtisaslaşdırılmış tibb müəssisəsinin və qan bankının təşkil olunması, yüksək ixtisaslı kadrların hazırlanması, talassemiyadan əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qan konpanentləri ilə, tibbi xidmətlərlə təmin edilməsi məqsədilə Talassemiya Mərkəzinin yaradılması və lazım olan digər tədbirlərin həyata keçirilməsi bilavasitə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi altında həyata keçirilmişdir. On beş il bundan qabaq atılan bu nəcib addımın bu gün də uğurla davam etdirilməsi, qayğıya ehtiyacı olan uşaqlara köməklik göstərilməsi alqışalayıqdır.

Köməksizə kömək etmək, imkansızın yanında olmaq Mehriban xanım Əliyevanın həyatının ana xəttidir. Mərhəmət, şəfqət, humanizm, xoş əməllər onun ruhunda, canında, qanındadır. Biz şəfqət dolu belə nəcib əməllərin dəfələrlə şahidi olmuşuq. Kimsəsiz insanların sığındığı qocalar evləri, xüsusi təyinatlı internat məktəblər, körpələr evləri və uşaq bağçaları, bütövlükdə mərhəmətə, qayğıya ehtiyacı olan insanlar Mehriban xanımın daim ünsiyyətdə olduğu həssas qruplar, yerlərdir. Nə yaxşı ki, bu çətin, ağrılı-acılı günlərdə də bu şəfqətli xanım qan azlığından əziyyət çəkən insanların, xüsusilə uşaqların yanında olmağı, onlara kömək göstərməyi özünə borc bildi. Bu, əsl xeyirxahlıq, mərhəmət nümunəsidir. Qadir Allah da Sizdən köməyini, mərəhəmətini əsirgəməsin, Mehriban xanım!

Ruqiyə ƏSƏDOVA

Dövlət başçısına minnətdarlıq

İlin əvvəlində Çinin Uhan şəhərində qeydə alınan koronavirus xəstəliyi qısa vaxtda butun dunyaya yayılaraq 230 mindən artıq insanın dünyasını dəyişməsinə səbəb olmuşdur. Yoluxanların sayı isə 3 milyonu ötmüşdür. Pandemiyanın genişləndiyi belə narahat dövrdə Azərbaycanda həyata keçirilən qabaqlayıcı operativ tədbirlər, əhalinin sosial təminatı və sağlamlığı ilə bağlı atılan qətiyyətli addımlar, insanlara göstərilən qayğı və diqqət Prezident İlham Əliyevə təkcə ölkəmizdə deyil, dünya ölkələrində, beynəlxalq təşkilatlarda da böyük hörmət qazandırmışdır. Dövlət başçısına ünvanlanan çoxsaylı minnətdarlıq məktubları bunu bir daha təsdiqləyir.

Çox hörmətli cənab Prezident!

İnsan dar gündə sınanar deyib ulularımız. Doğrudan da belədir. Xoş günə nə var ki?! Gərək çətin gündə insanların yanında olasan, əllərindən tutasan, onları darıxmağa, sarsılmağa qoymayasan. Siz təkcə dövlətimizin başçısı kimi yox, bir insan kimi də həmişə xalqımızla, millətimizlə birlikdəsiniz. Zaqatalada, Şamaxıda və ətraf rayonlarda zəlzələ baş verəndə, adamların min əziyyətlə qurub yaratdıqları evləri başlarına uçanda Sizi belə gördük. Onda insanlara verdiyiniz mənəvi dəstək bəlkə də onlara göstərdiyiniz maddi köməkliklərdən daha güclü təsir göstərdi zəlzələdən zərər çəkənlərə. Əmin oldular ki, sevib seçdikləri Prezidentləri, çətin gündə, çətin ayaqda insanlardan köməyini əsirgəməyən birinci xanım Mehriban Əliyeva axıradək onların yanında olacaqlar.

Bu belə də oldu. Siz xalqa, çətin vəziyyətdə qalan insanlara köməyinizi axıradək sədaqətlə yerinə yetirdiniz. Sonda yeni, daha gözəl evlərinə köçən insanlarla çay süfrəsi arxasında oturmağınız, onların sevinclərinə, fərəhlərinə şərik olmağınız Sizin sadəliyinizin, səmimiliyinizin aydın nümunəsi idi.

Koronavirus pandemiyasının dünyanı cənginə aldığı vaxtda da Siz xalqı, milləti qorumaq üçün əlinizdən gələni etdiniz. Hər şey gözlərimiz önündə olub. Xalqımız, millətimiz qarşısında necə böyük məsuliyyət daşıdığınızı işinizlə, əməlinizlə sübut etdiniz. Bizi ən çox sevindirən bu dar gündə də aztəminatlı ailələrin yanında olmağınız, köməyinizlə, qayğıkeşliyinizlə onları ürəkdən sevindirməyinizdir. Yəqin ki, dünya belə qalmayacaq. Pandemiya səngiyəcək, xəstəlik ötüb keçəcək, insanlar yenə də öz işlərinə, güclərinə qayıdacaqlar. Dəyişməyən isə xalqın, millətin öz Prezidentinə olan sonsuz inamı, etibarı olacaq. Bütün Azərbaycan xalqı kimi neftçalalılar da əmindirlər ki, dar ayaqda, çətin gündə onların güvənc yerləri var. Prezident həmişə həmvətənlərinin yanındadır.

Cavad ABIŞOV,
Xıllı qəsəbə sakini

Möhtərəm cənab Prezident!

Fevral ayının sonlarından dünyanın başı üzərini alan koronavirus pandemiyası fəlakətlər törətməkdədir. Artıq üç milyondan çox adam bu virusa yoluxub, 230 mindən artıq insan həyatla vidalaşıb. Dünya iqtisadiyyatına çox ciddi ziyan dəyib, digər sahələrdə ağır fəlakətlər törənib. Belə çətin durumda dünyanın dövlət və hökumət rəhbərləri öz xalqlarını, millətlərini bu ağır bəladan qorumaq üçün lazımi tədbirlər görməyə çalışsalar da, bu öz bəhrəsini vermir.

Virusun aşkarlandığı ilk gündən Sizin qətiyyətiniz, həyata keçirdiyiniz təxirəsalınmaz tədbirlər bizi bu bəladan xilas etdi. Dünyanın ən inkişaf etmiş ölkələrində pandemiyadan ölənlərin sayı minlərlə, on minlərlə ölçülsə də, ölkəmizdə bu rəqəm cox azdır. Bu da Sizin rəhbərliyiniz altında vaxtında aparılan qabaqlayıcı tədbirlərin, xüsusi karantin rejiminin tələb etdiyi qaydaların yüksək səviyyədə həyata keçirilməsinin nəticəsidir. Xüsusi karantin rejimi dövründə əhalinin aztəminatlı təbəqəsinin daim diqqətdə saxlanılması, təkcə ilin birinci rübündə insanlara milyardlarla manat məbləğində sosial ödənişlərin edilməsi əhali tərəfindən böyük razılıq hissi ilə qarşılanmışdır. Belə çətin günlərdə dövlətin aztəminatlı insanların yanında olması neftçalalıların qəlbində də xoş hisslər doğurmuşdur. Onlar da Sizə minnətdardırlar, cənab Prezident! Əmin olun ki, rayonumuzun sakinləri də həmişə Sizin ətrafınızda sıx birləşəcəklər, Sizə dəstək verəcəklər.

Əlibala SƏLİMOV,
Xolqaraqaşlı kənd sakini, fermer

Hörmətli cənab Prezident!

2003-cü ildə Siz ilk dəfə böyük səs çoxluğu ilə ölkə başçısı seçilərkən andiçmə mərasimində dediyiniz "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" sözləriniz hər birimizin yaxşı yadındadır. O vaxtdan 17 il keçir. 17 ildir ki, Siz ölkəmizə ləyaqətlə rəhbərlik edirsiniz. Ötən bu illər ərzində respublikamız tamamilə yenidən qurulub. 17 ildə bəlkə də bir əsrlik inkişaf yolu keçmişik. Bunu təkcə biz yox, dünyanın nüfuzlu beynəlxalq qurumları, tanınmış iqtisadçı ekspertlər, siyasi xadimlər də deyirlər. Ən başlıcası Azərbaycandakı sabitlikdir. Dünyada ciddi təlatümlərin baş verməsinə baxmayaraq Siz bu sabitliyi qoruyub saxlaya bilmisiniz. Bütün bunlara görə Sizə minnətdarıq.

Dünyanın başı üzərini alan koronavirus pandemiyası da ayrı-ayrı dövlətlər, dövlət rəhbərləri üçün bir sınaq oldu. Vaxtilə, necə deyərlər, döşünə döyən, uğurları ilə öyünən bir çox dövlətlər bu sınaqdan üzüağ çıxa bilmədilər. Koronavirusa təslim oldular. Amma Azərbaycan qalib gəldi. Siz xalqımızı, millətimizi qorumaqla yanaşı başqa dövlətlərə, müvafiq qurumlara, xüsusilə Ümumdünya Səhiyyə Təşkilatına da kömək əlinizi uzatdınız, bütövlükdə bəşəriyyətin qorunmasına xidmət etdiniz. Sizin təşəbbüsünüzlə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının fövqəladə zirvə videokonfransının keçirilməsi də bu nəcib amala xidmət edirdi.

Bu çətin, ağrılı-acılı günlərdə xalqımızın yanında olmağınız, insanları hərəkətə gətirən şəxsi təşəbbüsləriniz, xüsusilə çətin vəziyyətdə olan aztəminatlı ailələrə qayğı ilə yanaşmağınız hər birimiz üçün bir nümunə oldu. Sizin çağırışlarınızdan sonra cəmiyyət öz məsuliyyətini daha dərindən dərk etdi. İnsanların birbirinə diqqəti artdı. Xeyirxahlıq ənənələri gücləndi. Bizi bu ağır bəladan az itgi ilə xilas edən də xalqla dövlət, iqtidar arasında yaratdığınız birlik, inam oldu. Bütün bunlara görə çox sağ olun, cənab Prezident! Biz ağsaqqallar da həmişə Sizin yanınızdayıq. Sizə dəstək verəcəyik, daim Sizi müdafiə edəcəyik.

Ağalar AĞAYEV,
Bankə qəsəbə sakini, müəllim

Möhtərəm cənab Prezident!

Son illər Sizin rəhbərliyinizlə respublikamızda həyata keçirilən genişmiqyaslı abadlıq, quruculuq işləri rayonumuzdan da yan keçməyib. Doğma Neftçalamız yenidən qurularaq müasirləşib. Bu bizi çox sevindirir. Sonuncu dəfə 2017-ci ilin oktyabrında Neftçalaya gələndə neçə-neçə həyati əhəmiyyətli obyektlərin, istehsal müəssisələrinin açılışları ilə yanaşı, bilavasitə yaxın köməyiniz sayəsində əsaslı təmir olunaraq ən müasir diaqnostika və tibb avadanlıqları ilə təchiz edilmiş rayon mərkəzi xəstəxanasında da oldunuz, kollektivin işinə uğurlar dilədiniz.

Koronavirus pandemiyası ilə əlaqədar ciddi karantin tədbirlərin həyata keçirilməsinə zərurət yarananda bu xəstəxananın kollektivinin öz sözünü deyə bilməsi də buradakı şəraitlə bağlı idi. Virusa yoluxmaqda şübhəli bilinən neçə-neçə insan məhz Neftçala Mərkəzi Xəstəxanasında nəzarət altında oldu. Həkim və tibb işçiləri məhz sağlamlıq müəssisəsindəki yüksək şəraitə, peşəkarlıqlarına görə onlara etibar edilmiş məsul işin, vəzifənin öhdəsindən layiqincə gələ bildilər.

Sağaldıqdan sonra evlərinə, ailələrinin yanına yola düşən insanlar birinci növbədə Sizə minnətdarlıqlarını bildirirdilər, cənab Prezident! Xəstəxanadakı yüksək şərait, lazımi diaqnostika vasitələri və tibb avadanlıqları olmasaydı, yəqin ki, tibb işçiləri ciddi çətinliklər qarşısında qalardılar. Vətəndaşlarla yanaşı, həkim və tibb işçiləri də yaratdığınız bu gözəl şəraitə, onlara göstərdiyiniz qayğı və diqqətə görə Sizə minnətdardırlar. Bu çətin mübarizədə axıradək mütəşəkkillik göstərmək əzmindədirlər.

Qurbanxan PİRƏLİYEV,
Neftçala şəhəri, həkim

Hörmətli cənab Prezident!

Ölkəmizdə yeni koronavirus (Covid-19) infeksiyasının genişlənməsinin qarşısının alınması məqsədilə təsdiq etdiyiniz müvafiq pereventiv və profilaktik tədbirlər, əhalinin aztəminatlı təbəqəsinin sosial dayanıqlığının təmin edilməsi, o cümlədən pandemiyadan əziyyət çəkən sahibkarlara maliyyə dəstəyinin verilməsi, insanları sosial həmrəyliyə dəvət etməyiniz dövlət-vətəndaş birliyini əks etdirən əsas faktorlardandır. Fərdi sahibkar, fermer olaraq Sizin apardığınız məqsədyönlü daxili və xarici siyasətinizi tam dəstəkləyir və Sizin ölkəmizin çətin dönəmində dayanmadan, yorulmadan apardığınız islahatları alqışlayırıq. Siz Azərbaycanın inkişafını təmin edirsiniz. Sizin pandemiya şəraitində Azərbaycanı necə qoruduğunuz, qurtardığınız bir tarixdir. Yeni növ koronavirusun böyük insan tələfatı ilə nəticələnməsinin qarşısını almaq Sizin düşünülmüş, qabaqlayıcı tədbirlərinizin sayəsində mümkün olmuşdur. Fərdi sahibkar kimi sosial məsuliyyət dərk edərək Sizin bütün çağırışlarınızı tam şəkildə dəstəkləyirik.

Hörmətlə,
Heydər SƏMƏDOV,
Mürsəqulu kənd sakini, fərdi sahibkar

KÖNÜLLÜLÜK HƏRƏKATA ÇEVRİLİR

Könüllülük bütün dövrlərdə təqdir olunan, dəyərləndirilən hal olub. Əslində kiməsə kömək göstərmək, kiməsə əl tutmaq göstərişlə yox, insanın içindən gəlməlidir, insan bunu öz sevgisi ilə, istəyi ilə etməlidir. Belə olanda edilən əməl, göstərilən kömək daha çox yadda qalır, nümunə göstərilir. Ölkəmizdə cari il "Könüllülər ili" kimi elan olunanda da bu amillər, keyfiyyətlər əsas götürülmüşdü. Prezident İlham Əliyevin bu nəcib çağırışı cəmiyyət tərəfindən sevgi ilə qarşılanmışdı.

İlin əvvəlindən könüllülərin sayının durmadan genişlənməsi də bununla əlaqədardır. Koronavirus pandemiyası dövründə bu xüsusilə geniş hərəkata çevrildi. Bu heç də təsadüfi deyildi. Həmin dövrdə insanların, xüsusilə həssas təbəqədən olan insanların qayğı və diqqətə, köməyə daha çox ehtiyacları vardı. Dövlətin bu sahədə atdığı humanist addımlar göz qabağındadır. Hər kəs bunu yüksək qiymətləndirir. Eyni zamanda ayrı-ayrı təşkilatlar, iş adamları da könüllü şəkildə bu xeyirxah, humanist aksiyalara qoşulmağı özlərinə borc bildilər. Daim öz xeyirxah, humanist təşəbbüsü ilə fərqlənən Heydər Əliyev Fondu və Regional İnkişaf İctimai Birliyi bu dəfə də fərqlənərək Neftçaladakı 1500 aztəminatlı ailələr üçün yardım ayırdılar. Rayon icra hakimiyyəti isə 730 belə ailəni sevindirdi. Daha sonra Milli Məclis üzvləri, müxtəlif dövlət qurumları, özəl təşkilatlar və müəssisələr, şirkətlər, həmkarlar ittifaqı təşkilatları, fərdi sahibkarlar və fiziki şəxslər də bu nəcib təşəbbüsə qoşularaq yardımlarını 2500 ailəyə çatdırdılar. Hamısını da rayonda fəaliyyət göstərən könüllülərin köməyi ilə.

Rayonun inzibati ərazi nümayəndələrinin, bələdiyyələrin həyata keçirdikləri tədbirlər bu cəhətdən diqqətəlayiqdir. Heydər Əliyev Mərkəzinin, rayon polis şöbəsinin, rayon mühafizə polisinin, rayon gənclər və idman idarəsinin və digər təşkilatların əməkdaşları da əməkhaqlarından könüllü vəsait toplayaraq hazırladıqları hədiyyələri imkansız ailələrə çatdırdılar. Sonrakı günlərdə belə idarə və müəssisə, məktəb kollektivlərinin sayı durmadan artmağa başladı. Onlar da özlərinin dəyərli hədiyyələri ilə aztəminatlı ailələri, insanları sevindirdilər. Bununla yanaşı rayon sakinləri dövlət başçısı cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılmış koronavirusla mübarizəyə dəstək fonduna pul köçürməyi də özlərinə mənəvi borc bildilər.

Könüllülük, kiməsə könüllü kömək etmək, yardım göstərmək həqiqətən çox nəcib, xeyirxah əməldir. Yaxşı haldır ki, ilin əvvəlindən başlayan bu hərəkat getdikcə genişlənməkdə, yeni vüsət almaqdadır.

Murad ƏHMƏDOV

Biz birlikdə güclüyük, güclülər qalib gəlir

RAYON RƏHBƏRÍ YERLƏRDƏ ÍŞLƏRÍN GEDÍŞÍ ÍLƏ TANIŞ OLUR, VƏTƏNDAŞLARI ONLAYN QAYDADA QƏBUL EDÍR

Koronavirus pandemiyası, bununla əlaqədar tətbiq olunan ciddi karantin tədbirləri respublikamızın hər yerində olduğu kimi rayonumuzda da müəyyən çətinliklərə səbəb olub. Bununla yanaşı həyati əhəmiyyət daşıyan yerlərdə işlər davam etməkdədir. Rayon rəhbərliyi bu işlərin düzgün əlaqələndirilməsi, karantin qaydalarının pozulmasına yol verilməməsi üçün lazımi tədbirlər görür, işlərin gedişinə nəzarət etməklə yanaşı, həm də əhali arasında geniş profilaktiki tədbirlər həyata keçirir, maarifləndirici söhbətlər aparır.

Neçə vaxtdan bəri rayonumuzun həkimlərinin, tibb işçilərinin karantin şəraitində çalışaraq üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlmələri göz qabağındadır. Neftçalalılar haqlı olaraq ağxalatlı xilaskarları ilə fəxr edir, onların fədakarlıqlarından qürur duyurlar. Rayon icra hakimiyyətinin başçısı hörmətli Mirhəsən Seyidovun rayon mərkəzi xəstəxanasına gəlişi də həkimlərə, tibb işçilərinə olan hörmətdən, ehtiramdan irəli gəlirdi.

Görüş çox səmimi keçdi. Rayon mərkəzi xəstəxanasının baş həkimi Ramiz Əliyev rayon rəhbərinə karantinlə bağlı gördükləri işlər, həyata keçirdikləri tədbirlər barədə məlumat verdi. Qeyd etdi ki, müəyyən yorğunluğa baxmayaraq xəstəxananın kollektivi yüksək əhvali-ruhiyyədədir. Karantinin sonuna kimi gecə-gündüz xəstələrə qulluq edəcək, onların sağalıb həyata qayıtmaları üçün əllərindən gələni əsirgəməyəcəklər. Rayon icra hakimiyyətinin başçısı hörmətli Mirhəsən Seyidov belə çətin şəraitdə çalışaraq xəstələrin sağalmaları üçün çəkdikləri əziyyətə, fədakarlığa görə ağxalatlı xilaskarlara özünün səmimi təşəkkürünü, minnətdarlığını bildirdi.

Koronavirusun iqtisadiyyatımıza ciddi ziyan vurduğu indiki vaxtda işgüzarlığın artırılmasına, məhsul istehsalının genişləndirilməsinə diqqətin yönəldilməsi xüsusilə vacibdir. Havaların əlverişli keçməsindən istifadə edən pambıqçıların elliklə tarlaya çıxaraq çiyid səpininə başlamaları da bununla bağlıdır. Rayon icra hakimiyyətinin başçısı hörmətli Mirhəsən Seyidov belə qayğılı günlərdə Boyat kənd inzibati ərazisinə gələrək əkinin gedişi ilə yaxından tanış oldu. İnzibati ərazi dairəsi üzrə nümayəndə Asif Qafarov görülən

işlərlə əlaqədar rayon rəhbərinə ətraflı məlumat verdi. Sonra fermer Mürsəl Qafarov ötən ilki uğurlardan söhbət açaraq bildirdi ki, bu il daha yüksək məhsul istehsal etmək əzmindədirlər. Elə buna görə ilk gündən hamı səy göstərir, bol məhsulun əsasını indidən qoymağa çalışırıq.

Ərazidə görülən işlərlə, həyata keçirilən tədbirlərlə yaxından tanış olan rayon rəhbəri pambıqçılara uğur dilədi, onlara bol məhsul arzuladı.

Xıllı nərə balıqyetişdirmə zavodu rayonumuzun ən böyük balıqartırma müəssisəsidir. Zavodun əməkçiləri səylə çalışaraq üzərlərinə düşən vəzifələrin öhdəsindən layinqincə gəlirlər. Hər il Kür çayı vasitəsilə Xəzərə ötürülən milyonlarla qiymətli balıq körpələri nəsli kəsilməkdə olan nərəkimilərin artırılaraq çoxaldılmasında çox mühüm rol oynayır. Yaz-yay balıqartırma mövsümünün əsas dövrü olduğundan rayon icra hakimiyyətinin başçısı hörmətli Mirhəsən Seyidov buraya baş çəkməyi, görülən işlərin gedişi ilə tanış olmağı da vacib bilmişdi.

Zavodun direktoru yeni balıqartırma mövsümünün başlanması ilə əlaqədar ayrı-ayrı sex və sahələrdə həyata keçirilən tədbirlərdən danışdı, müəssisədəki yeniliklərə aydınlıq gətirdi. Bildirdi ki, zavodun kollektivi də karantin qaydalarına məsuliyyətlə yanaşır, bu qaydaları gözləməklə cari ilin balıqartırma mövsümünü uğurla başa çatdırmıq üçün bütün vasitələrdən maksimum səmərəliliklə istifadə etməyə çalışır.

Müəssisənin işi, fəaliyyəti ilə yaxından tanış olan, tapşırıq və tövsiyələrini verən rayon rəhbəri sonda zavodun əməkçilərinə yeni mövsümdə yeni-yeni uğurlar dilədi.

Həmin gün rayon rəhbəri eyni zamanda Kürqarabucaq kəndindəki balıqçılıq təssərüfatına gəldi. Buradakı fermer təsərrüfatının işi ilə yaxından tanış olan, təsərrüfatın gələcək perspektivləri barədə geniş məlumatları dinləyən rayon rəhbəri onlara qarşıda həyata keçirəcəkləri tədbirlərdə uğur dilədi.

Rayon rəhbəri koronavirus pandemiyası dövründə yerli icra nümayəndəlikləri ilə onlayn qaydada əlaqə yaradaraq müntəzəm şəkildə vətəndaşların qəbulunu da həyata keçirib, onları dinləyib, bir sıra məsələlərin elə yerindəcə həll edilməsinə nail olub, həlli vaxt tələb edən məsələlər isə nəzarətə götürülüb.

Aprelin 27-də və mayın 1-də rayon icra hakimiyyətinin başçısı hörmətli Mirhəsən Seyidov

tərəfindən keçirilən növbəti onlayn qəbullar da işgüzarlq şəraitində keçdi. Bu, karantin elan olunandan bəri təşkil edilən 6-cı belə qəbul idi. Qəbulda başçı ilə birlikdə aparatın məsul işçiləri də iştirak edirdilər. Neftçala şəhərini və ayrı-ayrı kəndləri əhatə edən qəbulda Qarabağ müharibəsi veteranları, II və III qrup əlillər, şəhid ailələri, təqaüdçülər və digər şəxslər öz problemlərini, onları narahat edən məsələləri dilə gətirdilər. Əvvəlki qəbullarda olduğu kimi vətəndaşların bir sıra problemləri elə müzakirələr zamanı həllini tapdı. Ayrı-ayrı məsələlərin araşdırılması üçün isə başçı aparatının müvafiq şöbələrinə və məsul şəxslərə konkret tapşırıqlar verildi.

Xıllı qəsəbəsindəki 1 saylı tam orta məktəb rayonumuzun ən qədim və ən böyük təhsil ocaqlarındandır. Özünün yetirmələri ilə həmişə diqqəti çəkən məktəbin ötən ildən başlayaraq Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində əsaslı təmir olunması təkcə müəllim və şagirdləri deyil, bütün qəsəbə sakinlərini ürəkdən sevindirmişdir. 862 yerlik bu obyektdə işlər davam etməkdədir. Aprelin 28-də rayon icra hakimiyyətinin başçısı hörmətli Mirhəsən Seyidovun buraya gəlməsi də təhsil ocağında aparılan təmir işlərinin gedişilə yaxından tanış olmaq məqsədi daşıyırdı. Məktəbin direktoru Cəmaləddin Süleymanov rayon rəhbərinə görülən işlərlə bağlı ətraflı məlumat verdi, təhsil ocağının tarixindən, qazandığı uğurlardan danışdı. Təmir işləri ilə, qurulanlarla, yaradılanlarla yerində tanış olan rayon rəhbəri sonda bir sıra problemlərin həlli məqsədilə tapşırıq və tövsiyələrini verdi.

Habil ƏSƏDOV

Maarifləndirici tədbirlər həyata keçirilir, dezinfeksiya işləri davam etdirilir

Hər hansı əks tərəflə mübarizə aparmaq üçün gərək onun xüsusiyyətlərini, güclü və zəif cəhətlərini, törədə biləcəyi fəsadları, çətinlikləri biləsən. Bunları biləndə mübarizə asanlaşır, qarşı tərəf tez təslim olur. Bu mənada koronavirus xəstəliyinə qarşı mübarizədə maarifləndirici tədbirlərin rolu böyükdür. Xəstəliklə mübarizəyə başlanandan bəri respublikamızın hər yerində olduğu kimi rayonumuzda da bu vacib məsələnin ön plana gəlməsi bununla bağlıdır. Rayon icra hakimiyyətinin başçısı hörmətli Mirhəsən Seyidovun rəhbərlik etdiyi çevik mobil qrup küçələrə və digər ictimai yerlərə səbəbsiz çıxan insanlarla görüşərək söhbətlər aparır, karantin qaydalarını onlara hərtərəfli izah edir, vəzifələrini aydınlaşdırır. Belə söhbətlərdən sonra rayon sakinləri rayon rəhbərliyinin "Evdə qal, özünü qoru" çağırışını səmimi qəbul edərək lazımsız gəzintilərdən çəkinir, evdə qalmağa üstünlük verirlər.

İnzibati ərazi dairələri üzrə nümayəndələrin, bələdiyyə sədrləri və üzvlərinin, ayrı-ayrı idarə və təşkilatların nümayəndələrindən təşkil olunmuş kiçik mobil qruplar da bu işdə böyük fəallıq göstərirlər. Özü də rayonun bütün ərazisində. Aparılan söhbət-

lərdən, lazımi izahlardan sonra vətəndaşlar onların da çağrışlarına və tövsiyələrinə əməl etməyə, karantin qaydalarını pozmamağa çalışırlar.

Koronavirus xəstəliyinin ilk günlərindən rayonumuzda dezinfeksiya işlərinin aparılması da daim diqqət mərkəzindədir. Bu işin bütün ağırlığı rayon gigiyena və epidemiologiya mərkəzinin üzərinə düşür. Mərkəzin əməkdaşları bu işdə böyük əmək sərf edirlər. Rayonumuzda elə bir idarə, müəssisə, yaşayış evi, məktəb, uşaq bağçası, xidmət obyekti və digər yer yoxdur ki, onlar bu yerlərdə geniş dezinfeksiya tədbirləri həyata keçirməsinlər. Özü də bir-iki dəfə yox, dönə-dönə. Bununla yanaşı küçələr və meydanlar da müntəzəm olaraq xüsusi dezinfeksiyaedici məhlullarla yuyularaq təmizlənir.

Bütövlükdə rayonumuzda koronavirusa qarşı bütün mübarizə tədbirləri rayon icra hakimiyyətinin başçısı hörmətli Mirhəsən Seyidovun nəzarəti altındadır. Rayon rəhbəri maarifləndirici tədbirlərdə özü yaxından iştirak etməklə yanaşı, həm də mobil qrupların işini düzgün əlaqələndirir və istiqamətləndirir. İndiyə qədər rayonumuzda xəstəliyə yoluxanların sayının az olması da həyata keçirilən sistemli qabaqlayıcı tədbirlərlə bağlıdır. Bu tədbirlər bundan sonra da ardıcıllıqla davam etdiriləcəkdir.

A.MİKAYILOV

Mayak yolu qaydaya salınır

Rayonların sosial-iqtisadi inkişafı dövlət proqramına uyğun olaraq son illər rayonumuzdakı bir sıra yolların təmir olunaraq yenidən qurulması rayonun Xol zonasındakı, Şirvan ərazisindəki əhalisinin böyük razılığına səbəb olmuşdu. Həmin dövrdə ölkə başçısı cənab İlham Əliyevə ünvanlanan çoxsaylı minnətdarlıq məktubları, teleqramları da bununla əlaqədar idi. İllərdən bəri təmir olunmayaraq diqqətdən kənarda qalan Bankə-Mayak yolunun bərbad vəziyyətdə olması isə ciddi narazılıq yaradırdı. Neçə-neçə yaşayış məntəqəsini, təşkilatları birləşdirən bu yolla hərəkət etmək gündən-günə çətinləşir, əsl müşkülə çevrilirdi. Rayonun yeni rəhbərliyinin bu vacib məsələyə ilk gündən diqqət yetirməsi, lazımi tədbirlər görməsi 10 kilometrdən artıq Bankə-Mayak yolunda təmir işlərinə başlanmasına şərait yaratmışdı.

Aprelin 18-də rayon icra hakimiyyətinin başçısı hörmətli Mirhəsən Seyidovun ərazinin ən ucqar nöqtələrindən birinə — Sübh kəndinə gəlməsi də təsadüfi deyildi. Bu kənd Kür çayının Şirvan tayında, Mayak istiqamətində ən sonuncu yaşayış məntəqəsidir. Birinci Mayaka doğru uzanaraq ərazidəki neçə-neçə kəndi, yaşayış məntəqəsini birləşdirən bu yol məhz Sübh kəndində sona çatır. Rayon rəhbərliyinin ardıcıl səylərindən sonra yolun yenidən qurulmasına başlanması, lazımi təmir işlərinin həyata keçirilməsi hamını ürəkdən sevindirmişdi. Uzun illərdən bəri rayonumuzda yolların təmir və tikintisini həyata keçirən "50 saylı Yol İstismar" MMC-nin kollektivi

Mayak yolunun qaydaya salınmasında da səyini əsirgəmir. Neçə gündən bəri iş üstündə olan inşaatçılar yolun çəkilişi üçün nəzərdə tutulan tədbirləri ardıcıllıqla yerinə yetirirlər. Görülən işlərlə yaxından tanış olan, inşaatçıların fikirlərini dinləyən, çətinliklərilə maraqlanan rayon rəhbəri, həm də onlara dəyərli məsləhətlərini verdi, işlərində uğurlar dilədi.

Yenikənd kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Abasqulu İsgəndərli dedi:

— Ərazimizdən keçən bu yol ən ağrılı yerimiz idi. Qışda palçıqdan, yayda toz-torpaqdan tərpənə bilmirdik. Müxtəlif ünvanlara müraciət etməyimizə baxmayaraq səsimizi eşidən, tədbir görən yox idi. Rayonumuzun yeni rəhbərinin bu işə ilk gündən diqqət yetirməsi minlərlə insanı ürəkdən sevindirib. Koronavirus dövrünün çətinliklərinə baxmayaraq yolun çəkilişinə başlanıb və işlər davam edir. Bu gün başçının buraya gəlməsi, inşaatçılarla görüşməsi, çətinlikləri ilə maraqlanması, yəqin ki, təsirsiz qalmayacaq, işlər daha da sürətlənəcəkdir. Buna görə də rayon icra hakimiyyətinin başçısı hörmətli Mirhəsən Seyidova, yolun çəklişini həyata keçirən inşaatçılara səmimi təşəkkürümüzü bildiririk.

Neçə vaxtdan bəri ərazidə minlərlə insanın ağrılı yerinə çevrilən yolun qaydaya salınması bizi də sevindirdi. İşimizlə əlaqədar bu yolu biz də dəfələrlə gedib-gəlməli olmuşduq, əziyyət çəkmişdik. Sevindik ki, pandemiyanın törətdiyi çətinliklərə baxmayaraq işlər davam edir. Əmin olduq ki, koronavirusla bağlı karantin dövrü başa çatdıqdan sonra başlanmış abadlıq, quruculuq işləri daha da genişlənəcəkdir.

M. ƏHMƏDOV

Aqrar sahə diqqətdə, fəaliyyətdədir

Çiyid səpini davam edir

Dünənə qədər unudulmuş, nisbətən araxa plana keçmiş pambıqçılıq dövlət başçısı cənab İlham Əliyevin qayğı və diqqəti sayəsində yenidən ön plana keçib, bu gün kənd təsərrüfatının aparıcı sahələrindən birinə çevrilib. Əslində pambıqçılıq bizim üçün doğmadır. Ötən əsrin 70-ci illərində rayonda 40 min tondan artıq məhsul istehsal etməyə nail olan kənd əməkçiləri onun xeyrini, barını, bəhrəsini görmüşdülər. İnsanlar bu sahədən yaxşı gəlir əldə etmişdilər. 90-cı illərdən sonra köhnə ittifaqın dağılması digər sahələrlə yanaşı pambıqçılığın da unudularaq tənəzzülə uğramasına şərait yaratmışdı.

Artıq o illər arxada qalıb. "Ağ qızıl" yenə də özünün ağ günlərini yaşayır. Bir neçə il bunda qabaq pambıqçılığa qayıdışın ilk illərindəki çətinliklər də arxada qalıb. Adamlar yenə böyük həvəslə pambıq əkib becərir, bu sahədən yaxşı gəlir əldə edirlər. Ötən il rayonumuzda 5087 hektar sahədən 16067 ton məhsul istehsal olunması, hər hektarın məhsuldarlığının 31,6 sentnerə çatdırılması bunun əyani göstəricisidir. Halbuki, 2018-ci ildə cəmi istehsal 10,083 ton, hər hektarın məhsuldarlığı isə 14,14 sentner olmuşdu. 2017-ci ildə isə 11111 hektar sahədən cəmi 9096,5 ton pambıq tədarük edilmişdi.

Son bir neçə ildə məhsuldarlığın ilbəil artması, çəkilən zəhmətin müqabilində yaxşı gəlir əldə olunması "ağ qızıl" ustalarını daha səylə çalışmağa, yüksək nəticələr əldə etməyə ruhlandırıb. Özü də dədə-

baba üsulu ilə yox, indi elmi-texniki nailiyyətlərdən, mütərəqqi iş üsullarından, qabaqcıl təcrübələrdən istifadə etməklə daha az sahədən daha çox məhsul əldə etmək başlıca prinsipə çevrilib. Ötən il məhz bu məsələlər ön planda olduğuna görə hər hektarın məhsuldarlığı əvvəlki illə müqayisədə xeyli dərəcədə yüksəlmiş, Neftçala bu mühüm göstəriciyə görə respublikada birincilər sırasına çıxmışdı.

Şübhəsiz, bu il məhsuldarlıq ondan da yüksək olmalıdır. Pambıqçılar da bu əhvali-ruhiyyə ilə çalışırlar. Torpaqların vaxtında şumlanaraq zərərli duzlardan yuyulub təmizlənməsi, lazımi səviyyədə arat olunması, texnika vasitələrinin təmir olunaraq qaydaya salınması, yenilərinin alınması çiyid səpininə də vaxtında, optimal şəraitdə başlamağa imkan vermişdir. Neçə vaxtdır sahələrdə qızğın iş gedir. Pambıqçılar əkini də aqrotexniki qaydada başa çatdırmaq üçün səy göstərirlər. Çəkilən zəhmət öz bəhrəsini verir. Qısa vaxtda yüzlərlə hektardan artıq sahəyə çiyid səpilmişdir. Çiyid səpini Xolqarabucaq zonasında, Aşağı Surra, Aşağı Qaramanlı və digər ərazilərdə daha mütəşəkkil təşkil olunmuşdur. İlk cücərtilərin həmin ərazilərdə alınması da onunla əlaqədardır. Pambıqçılar çalışırlar ki, əkini optimal şəraitdə başa çatdırmaqla becərmə tədbirlərimnə də vaxtında başlasınlar.

"GÜNDOĞAR"

FİLİALDA DA YÜKSƏK MÜTƏŞƏKKİLLİK VAR

Son illərə kimi yalnız fermerlərin, torpaq mülkiyyətçilərinin yetişdirdikləri pambığı tədarük etməklə məşğul olan Neftçala Pambıqtəmizləmə Zavodu — indiki MKT İK Neftçala filialı hazırda məhsulun tədarükünü həyata keçirməklə yanaşı fermerlərlə, torpaq mülkiyyətçiləri ilə bağladığı müqavilələr əsasında özü də məhsul yetişdirilməsində, məhsuldarlığın yüksəldilməsində fəal iştirak edir. Bunun üçün filialın hər cür şəraiti vardır. Burada kifayət qədər texnika vasitələri, əkin materialları toplanmışdır. Gübrələr, ziyanvericilər üçün müxtəlif preparatlar və lazım olan digər vasitələr də yerli-yerindədir. Elə buna görə də müəssisə ilə müqavilə bağlayan fermerlər, torpaq mülkiyyətçiləri heç bir çətinlik çəkmədən onlardan istifadə edərək istər əkini, istərsə də becərmə tədbirlərini vaxtlı-vaxtında, müasir aqrotexnikanın tələb etdiyi qaydada yerinə yetirə bilirlər. Bununla yanaşı filialın təcrübəli mütəxəssisləri də daim fermerlərin yanındadırlar. Onlar sahələri nəzərdən keçirərək işlərin gedişinə ciddi nəzarət edir, yeri gəldikcə dəyərli məsləhətlərini verir, kömənkliklərini əsirgəmirlər. Son illər filialla müqavilə bağlayan torpaq mülkiyyətçilərinin daha yüksək məhsuldarlığa nail olmaları da bununla əlaqədardır. Bu isə öz növbəsində müəssisənin özünün də uğurlarını durmadan genişləndirməyə, əldə etdiyi nailiyyətləri daha da möhkəmləndirməyə imkan verir. Ötən ilki nəticələr bunun əyani göstəricisidir.

Keçən il də filial mütəşəkkillik nümunələri göstərmişdi. İlkin yazdan başlayaraq payızın sonlarına kimi tarlalarda qızğın iş getdi. Fermerlər, torpaq mülkiyyətçiləri filialın mütəxəssisləri ilə əl-ələ verərək istər əkini, istərsə də becərmə tədbirlərini lazım olan səviyyə-

yədə həyata keçirdilər. Məhsul toplanışı zamanı xüsusilə mütəşəkkillik tələb olunduğundan maşınla yığıma daha çox üstünlük verildi. Buna görə də fermerlər itgiyə yol vermədən yetişdirdikləri məhsulu qısa vaxtda toplayaraq filialın tədarük məntəqələrinə təhvil verə bildilər. Görülən aqrotexniki tədbirlər nəticəsində hər hektarın məhsuldarlığı əvvəlki illə müqayisədə xeyli yüksək idi.

Keçən il filialla müqavilə bağlayan fermerlərin, torpaq mülkiyyətçilərinin əksəriyyəti yaxşı gəlir əldə etdiklərindən bu il də birlikdə işləməyə üstünlük verdilər. Qısa müddətdə burada da yüzlərlə hektar sahəyə toxum səpilmişdir. Çiyid keyfiyyətli olduğundan və aqrotexniki tələblər gözlənildiyindən hər yerdə çıxış yaxşı alınıb. Torpaqdan boy atan cücərtilər yaşıl cərgələrə çevrilərək göz oxşayır. Bunu görmək peşəsini ürəkdən sevən hər bir pambıqçı üçün böyük sevincdir.

Bundan sonra qarşıda daha məsul vəzifələr durur. Becərmə işlərini vaxtlı-vaxtında həyata keçirmək, ziyanvericilərə qarşı ardıcıl mübarizə aparmaq, suvarmanı düzgün təşkil etmək, kultivasiyanı tələb olunan səviyyədə yerinə yetirmək pambıqçılardan əlbir səy tələb edəcək. Ötən ilin təcrübəsindən biz bunu yaxşı bilirik deyən filialın baş mühasibi Elşad Tağıyev bildirdi ki, filialın rəhbərliyi, mütəxəssisləri həmişə fermerlərin, torpaq mülkiyyətçilərinin yanında olacaq, bütün işlərdə onlara yaxından köməklik göstərəcəklər. Məqsəd isə birdir: ötən ilki göstəriciləri təzələmək, daha yüksək nəticələrə nail olmaq. Bunun üçün əlimizdən gələni əsirgəməyəcəyik.

İmamverdi ZEYNALOV

GÜNDOĞAR

№ 9-10 (6736) 9 may 2020-ci il

SON SƏHİFƏ

Faşizm üzərində tarixi Qələbənin 75 ili tamam olur

ATA VƏ BABALARIMIZIN MÜBARİZ DÖYÜŞ RUHU GƏNCLƏRİMİZİN QƏLBİNDƏ, RUHUNDADIR

Elə hadisələr var ki, zaman keçdikcə unudulub gedir. Elə hadisələr də var ki, heç vaxt unudulmur, həmişə xatırlanır, yada salınır. Düz 75 il bundan qabaq bəşəriyyətə böyük fəlakətlər gətirən, yüzlərlə, minlərlə şəhərləri, qəsəbələri, kəndləri yerlə yeksan edən, on milyonlarla insanın ölümünə səbəb olan ikinci dünya müharibəsi də belə hadisələrdəndir. Bu qanlı savaş dünyanın bütün xalqlarına, bütövlükdə bəşəriyyətə güclü ziyan vursa da, ondan ən çox əziyyət çəkən SSRİ xalqları, Sovetlər İttifaqı oldu. 1941-ci il iyun ayının 22-də, səhər saat 04:15-də başlanan Böyük Vətən müharibəsi bilavasitə Sovet İttifaqının sıradan çıxarılması məqsədini daşıyırdı. Elə buna görə də almanlar bu müharibəyə xüsusilə ciddi hazırlaşmış, ən say-seçmə qoşun növlərini, ən müasir hərbi texnikalarını bu cəbhə istiqamətinə yönəltmişdilər.

Bu ağır müharibə şəraitində Azərbaycan, Azərbaycan xalqı nəyə qadir olduğunu əyani şəkildə nümayiş etdirə bildi. Təkcə müharibənin ilk üç günü ərzində respublikamızdan ordu sıralarına 40 mindən çox könüllünün yola düşməsi, respublika ərazisində 87 qırıcı batalyonun, 1124 özünümüdafiə, 15 min nəfərlik hava hücumundan müdafiə dəstələrinin təşkil edilməsi əsl səfərbərlik idi. 1941-ci ilin dekabrında azərbaycanlılar arasında ilk dəfə olaraq İsrafil Məmmədov ən yüksək ada — Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. Azərbaycanlılardan təşkil olunmuş və respublikamızın adını daşıyan 416-cı Taqanroq, 77-ci Simferapol, 223-cü Belqrad, 402-ci Atıcı diviziyalarının əsgərləri qanlı döyüşlərdə böyük qəhrəmanlıq nümunələri göstərərək xalqımız, millətimiz üçün qürur mənbəyinə çevrilmişdilər. Onların şəninə şeirlərin yazılması, nəğmələrin bəstələnməsi, mahnıların oxunması da bununla bağlı idi.

Ön cəbhənin yanacaqla təmin olunmasında neftçilərimizin fədakarlığı müstəsna rol oynadı. Həmin dövrdə SSRİ-də çıxarılan neftin 70-80 faizinin, təyyarə benzininin 90 faizinin respublikamızda istehsal olunması, bəzi yanacaq və xüsusi təyinatlı sürtgü yağlarının yalnız neftçilərimizin ağır zəhməti sayəsində hasilə gəlməsi buna əyani misaldır. Bununla yanaşı 130 növ silah, döyüş sursatı, çoxlu hərbi ləvazimat, 30 adda yüngül sənaye, 50 adda yeyinti sənayesi, 200 adda müxtəlif təyinatlı yerli sənaye və digər məhsullar istehsal edərək cəbhəyə yola salan Azərbaycan faşizmə qarşı mübarizədə, qələbənin əldə olunmasında çox mühüm rol oynadı. Təkcə neft is-

Tofiq MEHTİYEV,
rayon səfərbərlik və hərbi xidmətə çağırış şöbəsinin rəisi

tehsalındakı fədakarlığına görə Bakının Qəhrəman şəhər adlanmasına haqqı vardı. Amma çox təəssüf ki, bu böyük qəhrəmanlıq, fədakarlıq SSRİ rəhbərliyi tərəfindən layiqincə qiymətləndirilmədi.

Döyüşlər gərginləşdikcə Azərbaycan əsgəri, Azərbaycan gənci yeni-yeni qəhrəmanlıqlar, şücaətlər göstərirdi. Öz bədəni ilə atəş mazğalını qapayan Gəray Əsədov, öz sinəsi ilə komandirini düşmən gülləsindən qoruyan Qafur Məmmədov, uzaq Adriatik dənizinin sahillərində, Triyest şəhərində faşistlərə qan udduran Mehdi Hüseynzadə, polad tankları ilə faşistləri lərzəyə salan Həzi Aslanov, təkbaşına yüzlərlə hitlerçini qanına qəltan edən həmyerlimiz Ağaşirin Cəfərov, məşhur Sapundağ döyüşlərində həyatını riskə ataraq əsgərləri dəfələrlə düşmən üzərinə qaldıran Əlif Piriyev və neçə-neçə başqaları bu günkü nəsil üçün əsl qəhrəmanlıq nümunələridir. Qarabağ uğrundakı mübarizədə həmyerlilərimiz məhz belə qəhrəmanlarımızdan nümunə alaraq döyüşə atılmışdılar, yeni-yeni mərdlik, vətənpərvərlik nümunələri nümayiş etdirmişdilər. Bunu aydın dərk etmək üçün təkcə Aprel döyüşlərinə nəzər yetirmək kifayətdir. Həmin döyüşlərdə ata və babalarının hünər yoluna sadiq qalan əsgərlərimiz əsl qəhrəmanlıq nümunələri göstərərək guya məğlubedilməz olan erməni ordusunu darmadağın etmişdilər. Qısa müddətli döyüşlərdəki şücaətlərinə görə həmyerlilərimiz mayor Samid Gülağa oğlu İmanovun Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülməsi, gizir Elimdar Səlimxan oğlu Səfərovun "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalla təltif olunması buna əyani misaldır. İndi onların məzarları müqəddəs and yerimizdir. Rayon sakinləri buraya gələrək qəhrəman övladlarını böyük məhəbbətlə yad edir, məzarları önünə ətirli çiçəklər düzürlər.

Biz çox sevinirik ki, dünən imperiyanın tərkibində öz sözünü deməyi bacaran Azərbaycan bu gün müstəqil dövlətdir və bu müstəqil dövlətin güclü ordusu var. Əlbəttə, bu birdən-birə yaranmamışdır. Nizami ordu quruculuğumuzun əsasını, bünövrəsini qoyan ulu öndər Heydər Əliyev Silahlı Qüvvələrimizi möhkəmləndirərək onun inkişafı üçün əlindən gələni əsirgəməmişdir. Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü tədbirlər ordumuza yeni güc, yeni nəfəs verməklə onu daha uca zirvələrə çatdırmışdır. Bu gün beynəlxalq miqyasda güclü ordulardan söhbət açılanda Azərbaycan Silahlı Qüvvələrinin adının birincilər sırasında çəkilməsi heç də təsadüfi deyil. Ordumuz təkcə texniki arsenalına, müasir silahlarına görə deyil, həm də əsgərindəki vətənpərvərliyə, Vətən sevgisinə görə fərqlənir. Bu isə çox güclü amildir. Bunun üçün biz ilk növbədə ordumuzun inkişafına daim dəstək verən, Azərbaycan əsgərinin qayğıları ilə yaşamağı bacaran möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevə borcluyuq. İnanırıq və əminik ki, ata və babalarımızın Böyük Vətən müharibəsində göstərdikləri qəhrəmanlıqları, mərdlikləri dönə-dönə təkrarlayaraq üçrəngli bayraqlarımızı ən qısa zaman kəsiyində qədim yurd yerimiz Xankəndi üzərində, qeyrət qalamız Şuşa üzərində və digər tarixi ərazilərimizdə dalğalandıracaqlar. Necə ki, bir neçə saatın içində bayrağımızı Lələtəpə yüksəkliyi üzərinə qaldırmağı bacardılar.

FƏDAKAR HƏKİMLƏRİMİZ, ÇOX HÖRMƏTLİ POLİS İŞÇİLƏRİMİZ, ƏZİZ SANİTARLARIMIZ

Hər bir zamanın, dövrün öz qəhrəmanları olur. Siz də bu günün, indiki zamanın qəhrəmanlarısınız. Bu qəhrəmanlıq, fədakarlıq duyğuları sizdə həmişə olsa da, bu gün biz bunu daha aydın, daha qabarıq şəkildə görürük, hiss edirik. Koronavirus nə qədər canlar alıb, çox ciddi fəsadlar törətsə də, bu çətin, ağrılı-acılı günlərdə el üçün yananları, fədakarlıq göstərənləri də çıxardı üzə, tanıtdı belələrini bizlərə. Sevinirik, fəxr edirik ki, siz də "ölüm və qalım" uğrunda mübarizə apararaq, gecəni gündüzə qatan, lazım gəlsə canını belə əsirgəməyən fədakar insanların ön sırasındasınız, əziz həkimlərimiz, tibb işçiləri. Yadımıza 1990-cı ilin qanlı yanvar hadisələri düşür. Quduzlaşmış əsgərlər Bakıda törətdikləri qanlı qırğından sonra respublikamızın bir sıra rayonları ilə yanaşı Neftçalaya da hücum etdilər. Çoxlu yaralananlar oldu. Həmin gün sizin fədakarlığınız olmasaydı ölənlərin sayı üç yox, daha çox olardı. O gün siz rayon mərkəzi xəstəxanasında səhərə qədər çarpışaraq qanlarına qəltan olmuş neçə-neçə insanı ölümün pəncəsindən xilas etdiniz. Haqlı olaraq sizi həmin günlərin qəhrəmanlarından hesab edirdilər. Qırğının törədildiyi Bakıda isə faciənin miqyası xüsusilə geniş idi. Burada yüzdən çox insan xüsusi amansızlıqla qətlə yetirilsə də, ağır yaralıların sayı daha çox idi. Həmin gecə Bakının xəstəxanalarında, necə deyərlər, kiprikləri ilə od götürən həkimlərin, tibb işçilərinin fədakarlığı olmasaydı yəqin ki, həyatla vidalaşanların sayı qat-qat arta bilərdi.

Bu gün ondan da dəhşətli vəziyyətdir. Özü də təkcə Bakıda, Azərbaycanda deyil, bütün dünyada koronavirus deyilən kabusla əlbəyaxa mübarizə gedir. Ön cəbhədə yenə həkimlər, tibb işçiləridir. Televiziya kanallarında, sosial şəbəkələrdə bir-birindən isti sözlər deyilir, minnətdarlıq duyğuları ifadə olunur onların ünvanına. Günlərlə, on günlərlə ailələrindən, övladlarından uzaq düşən, heç bir çətinlikdən sarsılmayan, bütün əzab-əziyyətlərə sinə gərən tibb işçilərinin fəaliyyətlərini əks etdirən videoçarxlara, şəkillərə həyəcansız baxmaq olmur. Bunlar fədakarlıq, qəhrəmanlıq deyil, bəs nədir?! Bunlar müqəddəs Hippokrat andına sədaqət nümunəsi deyil, bəs nədir?!

Bu çətin, əzablı-əziyyətli günlərdə təkcə rayon mərkəzi xəstəxanasının kollektivi, bütövlükdə rayonumuzun həkimləri, tibb işçiləri deyil, rayon gigiyena və epidemiologiya mərkəzinin əməkdaşları da üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlirlər. Bütün günü xüsusi skafandırda məktəbləri, idarə və müəssisələri, yaşayış evlərini, uşaq bağçalarını, küçə və meydanları dezinfeksiya etmək heç də asan deyil, əsl cəfadır. Ancaq bu cəfa onları yormur, usandırmır. Nə qədər yorulsalar, əldən düşsələr də ürəklərində bir müqəddəs arzu var: təki virus tezliklə məhv edilsin, neftçalalılar bundan əziyyət çəkməsinlər, ölüm-itim olmasın. Elə bu fədakarlığınıza, cəfakeşliyinizə görə qədirbilən rayon sakinləri sizə də ürəkdən minnətdardırlar, sizi də xoş hisslərlə, duyğularla yad edirlər. Siz buna layiqsiniz.

Əziz polis işçiləri, koronavirus kimi qorxulu xəstəliyin qarşısının alınmasında sizin fədakarlığınız, peşəkarlığınız da az rol oynamadı. Eyni vaxtda həm insanları maarifləndirmək, həm də xüsusi karantin rejiminin qayda-qanunlarının pozulmasına nəzarət etmək o qədər də asan deyildi. Ancaq bütün çətinliklərə baxmayaraq siz bu məsuliyyətli işin öhdəsindən layiqincə gəldiniz. Qaydaların pozulmasına yol vermədiniz. Lazım gələndə kimliyindən asılı olmayaraq cərimələrin yazılmasından da çəkinmədiniz. Biz əminik ki, bu ağır bəla başımızın üzərindən sovuşub gedəndə neftçalalılar yoluxmanın qarşısının alınmasındakı xidmətlərinizə, əziyyətinizə görə sizi də minnətdarlıq hissilə xatırlayacaq, içlərindən gələn qürur hissilə "mənim polisim məni qorudu" deyəcəklər.

Dünya yaranandan belə olub. O qədər xəstəliklər, müharibələr gəlib gedib ki! Bu bəla da keçib gedəcək. Qalan güclü insanların dəyanəti, nümunəsi olacaq. Bu nümunələr isə heç vaxt itmir, əbədi yaşayır, nəsildən nəslə ötürülür, insanları daim mübariz olmağa çağırır.

"GÜNDOĞAR"

Müxalifətə sözümüz: ÜZÜNÜZÜ XARİCDƏKİ AĞALARINIZA YOX, XALQA ÇEVİRİN, CƏNABLAR!

Müəyyən bir iş görmək, iddialı olmaq üçün gərək insanın mənəvi haqqı olsun. Bu haqqı, hüququ qazananda həmin adamın sözü eşidilir, onun arxasınca gedirlər. Yaranmış vəziyyətdən istifadə edərək bu gün haqdan, ədalətdən dəm vuranlar, adamları küçələrə, meydanlara səsləyənlər mənəvi haqlarını 28 il bundan qabaq itiriblər. AXC-Müsavat hakimiyyəti dövründəki başıpozuqluq, anarxiya və xaos yaşlı və orta nəslin nümayəndələrinin yaddaşından çıxmayıb. Ölkə dünyanın qəbul etdiyi sivil qanunlarla yox, cəngəllik qanunları ilə idarə olunurdu. Hərə başına beş-on nəfər yığıb silahlı dəstə düzəldərək bildiyini, ağlına gələni etməyə çalışırdı. Vətəndaş müharibəsi təhlükəsinin gündən-günə reallaşması, ölkədə aclığın başlanması adamların sabaha olan ümidlərini itirmişdi. Vəziyyət o qədər qarışmışdı ki, sabah nəyin baş verəcəyini heç kəs proqnozlaşdıra, müəyyənləşdirə bilmirdi.

Belə vəziyyəti, "hakimiyyəti" necə unutmaq olar?! Bütün bunlar bu gün cəmiyyətdə nöqsan axtaran, özünü guya xalqın təəssübkeşi kimi göstərən, ona yağlı vədlər verən o vaxtkı iqtidar nümayəndələrinin əməlidir. Belələri cəmiyyət qarşısına çıxmaq haqqını çoxdan itirsələr də, köhnə peşələrindən, adətlərindən əl çəkmək istəmirlər, yenə xalqı çaşdırmağa, guya iqtidara yol göstərməyə çalışırlar. Onları qınamaq da olmur. Başqa yol görmürlər, yaxud görmək istəmirlər. Gündəmdə qalmağın yeganə yolunu yenə də yalnız küçə, meydan mitinqlərində, nümayişlərdə, bir sözlə, qarmaqarışıqlıqda, iğtişaşlarda görürlər. Ancaq o dövr çoxdan keçib, cənablar. Daha dövran əvvəlki qarmaqarışıq dövran deyil. Hər yerdə sakitlik, sabitlik, əmin-amanlıqdır. İnsanlar öz işində-gücündə, dolanışığındadır. Əgər dünyanı bürüyən koronavirus bu qədər geniş yayılaraq ciddi fəsadlara, ölüm hallarına səbəb olmasaydı, yəqin ki, insanlar heç vaxt evdə bu qədər qala bilməzdilər. Bu yalnız onların sağlamlığı üçündür. Dövlət də yalnız bunun üçün insanları evdə qalmağa, qoyulmuş təhlükəsizlik tədbirlərinə ciddi əməl etməyə çağırır. Siz isə adamları yenidən mitinqlərə səsləyirsiniz. Budurmu sizin xalqa olan sevginiz?! Onun sağlamlığını, xoşbəxt gələcəyini beləmi düşünürsünüz?!

Dünyanın ayrı-ayrı ölkələrində müxalifət sözünü parlament tribunalarından deyir, konkret faktlar, arqumentlər gətirir, özlərinin proqramlarını, layihələrini ortaya qoyurlar. Parlamentin üzvü olmaq, onun tribunasından istifadə etmək üçün isə gərək xalqın dəstəyini, etimadını qazanasan. Siz isə seçkilərdən qorxursunuz. Ona görə ki, xalqın, millətin inamını, etimadını itirmisiniz. Bu inamı, etimadı qazanmaq üçün boş hay-küy yox, iş görmək, nəyisə ortaya qoymaq lazımdır. Siz isə bunlardan çox-çox uzaqsınız. Xarici ağalarınıza, havadarlarınıza arxalanırsınız, dəstəyi, köməyi millətdən, xalqdan yox, onlardan gözləyirsiniz. Onların sifarişləri ilə qarışıqlıq yaratmağa, ağa qara deməyə cəhd göstərirsiniz. Başqa cür ola da bilməz. Sizə çörək verənə necə arxa çevirə bilərsiniz?! Mənbələr bağlansa çöreksiz, pulsuz qalacaqsınız. Siz isə buna öyrəşməmisiniz.

Xalq üçün, millət üçün bundanmı ağır gün ola bilər?! Dünənə qədər bir-birlərinə düşmən olan dövlətlər belə dünyanın başı üzərini alan bəladan qurtarmaq üçün bir-birlərinə kömək etməyə, dəstək verməyə çalışırlar. Siz isə xalqdan daha da uzaqlaşırsınız. Dövlətimiz, hökumətimiz insanlarımızın sağlamlığı üçün lazım olan bütün tədbirləri gördüyü bir vaxtda siz yaranmış çətinliklərdən sevinir, bu çətinlikləri hər vasitə ilə qabartmağa can atırsınız. Axı, bu ən azından nankorluqdur. Nankorlara isə sağlam cəmiyyətdə heç vaxt yer olmur. Nə qədər ki, gec deyil, siz də daşı tökün ətəyinizdən. Üzünüzü xaricdəki ağalarınıza deyil, xalqa çevirin, xalqı düşünün, onunla birlikdə olun. Onda bəlkə xalq sizi bağışlayar.

Z. MƏMMƏDOV

UŞAQLARIN DOĞULANADƏK CİNS SEÇİMİNİN QARŞISININ ALINMASI GÜNÜN TƏLƏBİDİR

Ailə cəmiyyətin özəyi, ailədə dünyaya gələn uşaqlar isə həyatın davamıdır. Dünyaya uşaq gələndə ilk dəfə sevinən, bundan qürurlanan gənc valideynlər olurlar. Həmin gün onların fərəhi yerə-göyə sığmır. Bu sonsuz sevincdən, fərəhdən babalara, nənələrə, əmilərə, dayılara, xalalara və bibilərə də çoxlu-çoxlu pay düşür. Eyni hiss və duyğuları yaşayan bu doğmalar üçün də körpələrin dünyaya gəldiyi gün unudulmaz olur. Əksəriyyət üçün uşağın oğlan, yaxud qız olmasının da fərqi yoxdur. Təki sağlam övlad gəlsin dünyaya, sağ-salamat böyüsün, ürəklərdəki arzular çin olsun.

Amma çox təəssüf ki, hamı belə düşünmür. Elələri də var ki, uşağın cinsi onlar üçün çox önəmlidir. Övladlarının oğlan olmasını istəyənlər süni yolla qız uşaqlarını ana bətnindəkən tələf etməkdən belə çəkinmirlər. Ölkədə demoqrafik prosesin pozulmasına gətirib çıxaran bu hal gələcəkdə çox ciddi fəsadlara gətirib çıxara bilər. Bu isə yolverilməzdir. Bunu nəzərə alaraq Nazirlər Kabineti uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair "2020-2025-ci illər üçün Tdbirlər Planı"nı təsdiq etmişdir.

Buna müvafiq olaraq rayon icra hakimiyyətində də müvafiq tədbirlər müəyyənləşdirilərək icra olunmaq üçün rayon təhsil şöbəsinə, rayon polis şöbəsinə, "Gündoğar" rayon qəzeti redaksiyasına, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şirvan bölgəsi üzrə şöbəsinə, ƏƏSMN nazirliyi yanında DSMF-nin rayon şöbəsinə, inzibati ərazi dairələri üzrə nümayəndəliklərə və yerli özünüidarəetmə orqanlarına göndərilmişdir. Qızların təhsildən yayınması hallarının qarşısının alınması üçün maarifləndirmə tədbirlərinin həyata keçirilməsi, məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətinə nəzarətin gücləndirilməsi, onların sayının artırılması, tək və çoxuşaqlı analara bu müəssisələrdən istifadə imkanlarının gücləndirilməsi üçün güzəştlərin tətbiq edilməsi, kənd yerlərində qızların təhsildən yayındırılması ilə bağlı tətbiq edilən məsuliyyət tədbirlərinin digər mexanizmlərindən istifadə edilməklə onların sərtləşdirilməsinə və praktik tətbiqinə nail olunması əsas vəzifələr kimi qarşıya qoyulmuşdur.

Əlaqədar təşkilatlar nəzərdə tutulan bu tədbirləri ardıcıllıqla yerinə yetirməklə maarifləndirmə işlərini durmadan genişləndirirlər.

R. ƏSƏDOVA

2020-ci ilin ikinci yarısı üçün "Gündoğar"a abunə yazılışına başlanmışdır

Diqqətinizə çatdırırıq ki, respublikamızın digər mətbuat nümunələri kimi "Gündoğar" qəzetinin əsas maliyyə mənbəyi də abunədir. "Gündoğar" qəzeti də abunədən toplanan vəsait hesabına çap olunur və rayon ərazisində yayılır.

Ona görə sizi bu dəfə də öz doğma qəzetinizə - "Gündoğar"a fəal dəstək verməyə çağırırıq. Və inanırıq ki, bu kampaniya dövründə də ondan köməyinizi əsirgəməyəcəksiniz. Abunə yazılışı redaksiyada və "Kapitalbank"ın Neftçala filialında həyata keçirilir.

1 illik abunə qiyməti 40 (qırx), 6 aylıq abunə qiyməti isə 20 (iyirmi) manatdır.

Əlaqə telefonumuz: 3-44-03, **mobil:** (050) 333-72-30; (055) 669-56-71

Poeziya yarpaqları

Mənim üçrəngli bayrağım

Zirvələrdə dalğalanır,
Mənin üçrəngli bayrağım.
Dəniz kimi çalxalanır
Mənim üçrəngli bayrağım.

Hüsnündə xalq qüdrəti var,
Könüllərin ülfəti var,
Bir dünyalıq heyrəti var,
Mənim üçrəngli bayrağım.

Sarsılmayan vüqarımdır,
İlk səadət nübarımdır,
Əbədilik şüarımdır
Mənim üçrəngli bayrağım.

Azadlığın yolu oldun,
Məhəbbətlə dolu oldun,
Uludan da ulu oldun,
Mənim üçrəngli bayrağım.

Zaur vurğunundur hər an,
Yoxdur həyat sənsiz bir an.
Ey başımız üstə duran—
Mənim üçrəngli bayrağım.

Məramımdır eşqim mənim

Könlüm sönməz günəş nuru,
Məramımdır eşqim mənim.
Niyyətim var sutək duru,
Məramımdır eşqim mənim.

Məhəbbətdən yaranmışam,
Məhəbbətə tapınmışam,
Duyğulara sarınmışam,
Məramımdır eşqim mənim.

Ürək boşdur ruh olmasa,
Göz nə gərək yaş dolmasa,
İnsan heçdir ucalmasa,
Məramımdır eşqim mənim.

Çəkilməyib Zaur öndən,
Həyata baxmayıb gendən,
Özümü dərk edən gündən
Məramımdır eşqim mənim.

Söz

Baldır sözün şirinliyi,
Dadı dildə, ürəkdədir.
Mənası var çalar-çalar,
Hüsnü əlvan ləçəkdədir.

Söz qalar Yer üzərində,
Ucalar el nəzərində.
Güc-qüvvəti kəsərində,
Nə əldə, nə biləkdədir.

Ay Ərmuğan, yanan kəsdir,
Söz göylərdən gələn səsdir.
O elə bir müqəddəsdir,
Qanadları mələkdədir.

Zaur ƏRMUĞAN

Baş redaktor
H.Ə.ƏSƏDOV

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Şəhadətnamə №268

Ünvanımız:
Az 4700, Neftçala şəhəri, H.Əliyev prospekti 38,
Telefon: 3-44-03
Mobil: (050) 333-72-30, (055) 669-56-71
H/H: №AZ95AIIB33080019446400258164
VÖİN: 6500044671

Qəzet "GÜNDOĞAR"ın kompüter mərkəzində yığılıb səhifələnmiş və "Futbol+Qəzeti Redaksiyası MMC" mətbəəsində çap olunmuşdur.

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Tiraj: 500 Sifariş № 6
Bir nömrənin qiyməti: 40 qəpik.